## Səyyar vergi yoxlaması aktlarına nəzarət gücləndirilir

Ötən il səyyar vergi yoxlamaları nəticəsində vergi ödəyicilərinə 2010-cu illə müqayisədə 189,4 milyon manat çox maliyyə sanksiyası hesablanmışdır

Vergi yoxlamaları keçirildikdə düzgün qərar qəbul edilməsi üçün vergi orqanları əhəmiyyətli olan bütün halları, o cümlədən vergi ödəyicisi üçün əlverişli olan halları aydınlaşdırmalıdırlar. Son illər vergi sistemində həyata keçirilən kompleks isklahatlar nəticəsində nəzarət işlərinin səmərəliliyi xeyli yüksəlmiş, səyyar vergi yoxlamalarının keyfiyyəti yaxşılaşdırılmış və bir vergi yoxlamasına düşən əlavə hesablanmış verginin və tətbiq edilmiş maliyyə sanksiyasının məbləğləri ötən illərlə müqayisədə xeyli artmışdır. Belə ki, 2011-ci ildə 13467 səyyar vergi yoxlaması həyata keçirilmiş (2010-cu illə müqayisədə 18059 və ya 25,4% az) və yoxlamalar nəticəsində vergi ödəyicilərinə qarşı 273,7 milyon manat maliyyə sanksiyası tətbiq edilmişdir ki, bu da 2010-cu illə müqayisədə 189,4 milyon manat çoxdur.
Səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi prosedurları Vergi Məcəlləsinin 39-cu maddəsinin müddəaları ilə tənzimlənir. Həmin maddənin tələblərinə görə səyyar vergi yoxlamalarının nəticələri üzrə vergi yoxlama aktı tərtib edilir ki, bunlar da vergi orqanlarının səlahiyyətli şəxsləri və vergi ödəyiciləri tərəfindən imzalanmalıdır. Vergi ödəyicisi yoxlama aktında qeydlər apara və ya aktı imzalamaqdan imtina edə bilər. Vergi yoxlaması aktının bir nüsxəsi vergi ödəyicisinə aktın tərtib edildiyi tarixdən sonra 5 gündən gec olmayaraq verilir. Vergi ödəyicisi yoxlama aktı və ya onun hər hansı hissəsi ilə razılaşmadıqda 30 gün müddətində aktı imzalamamasının səbənlərini izah edə və ya akta etirazını yazılı surətdə bildirə bilər. Bu halda vergi ödəyicisinin yoxlama aktını imzalamamasını və ya etirazını ona öz yazılı izahatını (etirazını) təsdiq edən sənədlərin surətini əlavə edərək vergi orqanına təqdim etmək hüququ vardır. 30 gün bitdikdən sonra 15 gün ərzində vergi orqanının  rəhbəri (onun müavini) götürülmüş və ya vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlər və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması və müvafiq sanksiyaların, cərimələrin tətbiq edilməsi məsələsinə baxır. Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri 10 gün müddətində vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi, məsuliyyətə cəlb edilməsindən imtina və ya əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında qərarlardan birini çıxarır. Vergi Məcəlləsinin 15.1.9-cu maddəsinə əsasən, vergi ödəyicisinin müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət etmək hüququ vardır.